**UOT 82**

# ALBERT KAMYUNUN "YAD" ƏSƏRİNDƏ VARLIQ PROBLEMİ

**Vəfa ABBASOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 30 sentyabr 2024; çapa qəbul edilmişdir: 11 noyabr 2024; online-da çap edilmişdir: 11 dekabr 2024.
Received: 30th of September, 2024; accepted: 11th of November, 2024; published online: 11th of December, 2024.

**Açar sözlər:** *fəlsəfə, varlıq, azad, insan, XX əsr, dünya, əsər, həqiqət, ölüm, edam*

## Giriş

Hər hansı ədəbiyyat nümunəsini ətraflı təhlil etmək, müəllifin bu əsərdə nədən bəhs etdiyini anlamaq, cəmiyyətə nə kimi mesajlar ötürdüyünü dərk etmək üçün əsas şərtlərdən biri yazıçını yaxından tanımaqdır. Əsərin yazıçısı hansı ailədə doğulmuş, hansı şərtlərlə həyatına davam etmiş, hansı itkiləri yaşamış, çevrəsindəki insanlar kim olmuş və s.-i bilmək çox önəmlidir. Əks təqdirdə əsəri doğru anlamaq mümkün deyil. Təbii ki, hər bir kəs oxuduğunu izah etməkdə, duyğu və düşüncələrinə uyğun biçimdə şərh etməkdə sərbəstdir. Lakin bu sizin yanaşmanız olacaq və mövqeyiniz yazıçı ilə üst-üstə düşdüyü kimi, tamamilə fərqli də ola bilər. Xüsusən də, bu yazıçı müəyyən bir fəlsəfi cərəyanın nümayəndəsi olarsa, bu halda müəllifi yaxından tanımaqla bərabər, bu fəlsəfəni də öyrənmək məcburiyyətindəsiniz.

A.Kamyunun "Yad" povesti XX əsrdə qələmə alınmış əsərlər sırasında ən məhşuru və ən mürəkkəbidir desək, yanılmarıq. "Yad" romanı daim müxtəlif müzakirə və diskussiyaların mövzusu olmuş, heç zaman ədəbiyyatsevərlərin gündəmindən düşməmişdir. Əsəri bir oxunuşdan anlamaq qeyri-mümkündür. A.Kamyu yaradıcılığına və fəlsəfi dünyagörüşünə bələdlik belə əsərin qəhrəmanı Mersonun davranışlarına şərh verməkdə, onu anlamaqda kifayət etmir. Fikrimizcə, roman mütləq bir neçə dəfə oxunub incələnməlidir.

## 1. XX əsrin əvvəllərində Avropa mədəniyyətində böhran və varlıq fəlsəfəsi

XIX əsrin sonu və XX əsrin əvvəlləri fəlsəfənin dərin böhranı ilə yadda qalmışdır. Modern dövrün ən mühüm iki düşüncə istiqaməti olan materialist mexanizm və subyektivizmə qarşı yeni fəlsəfi axınların meydana gəlməsi bu böhranın mühüm əlamətlərindən biridir. Bu vəziyyəti yalnız müasir mədəniyyətimizin çıxış nöqtəsi olan İntibah öncəsi yaranan böhranla müqayisə etmək olar. Çünki məsələ fəlsəfənin hüdudlarından çox kənara çıxır. Bu dövrdə Avropada sosial düşüncədə dərin dönüş, ağır iqtisadi sarsıntılar, sənət sahəsində köklü yeniliklər, dini zəmində nəzərəçarpacaq dəyişikliklər baş verdi. XX əsrin əvvəllərini isə başa çatmış böyük bir eranın altından çəkilmiş qırmızı xətt kimi qiymətləndirmək lazımdır. Təsadüfi deyil ki, Avropa mədəniyyətinin böhran və tənəzzülü XIX əsrin II yarısında F.Nitşe, F.Dostoyevski və L.Tolstoy tərəfindən proqnozlaşdırılmışdı. Əvvəl böhranla bağlı fikirlər eksentrik xarakterdə qəbul edilsə də, II Dünya müharibəsindən sonra onun fəlakət nəticələri böhranı milyonlarla Avropalı üçün reallığa çevirdi (6, s. 43).

* *filologiya üzrə fəlsəfə doktoru, ADNSU*
*e-mail:* vafa.rzayeva.74@mail.ru
**https://doi.org/10.30546/25194011.2024.13.5.0167**

A.Kamyu XX əsrdə yaranmış ekzistensializm (lat. exsistensia – varlıq) fəlsəfəsinin ən mühüm nümayəndələrindən biridir. Bu fəlsəfi istiqamətin ana fikirlərinin kökü XIX əsrdə yaşamış danimarkalı filosof Kirkeqor və F.Nitşeyə dayanır. İlk dəfə məhz Kirkeqor insana bir fərd (indevid) kimi yanaşmaq, onu ümumi əxlaq, idrak, etika qanunları ilə yox, müstəqil varlıq olaraq analiz etməyin vacibliyini vurğulamışdır.

Kirkeqora görə, varolma sadəcə "orada olmaq" deyil, fərdin coşqu ilə yaşaması, varlıq formasını seçməsi və özünü seçdiyi bu "varolma" şəklinə həsr etməsidir (5, s. 87). Məhz Kirkeqorun bu fikirlərini varlıq fəlsəfəsinin təməl tezisi kimi qəbul etmək olar. F.Nitşeyə gəlincə isə o, nəinki fəlsəfə, ümumiyyətlə Avropa mədəniyyəti tarixində unikal hadisədir. F.Nitşe öz fəlsəfəsi ilə XIX əsrə yekun vuraraq XX əsrin, hətta XXI əsrin belə düşüncə sərhədlərini təyin edir, əsərlərində irəli sürdüyü tezis xarakterli fikirlərlə iki əsr irəlini görərək insanlığın başına gələcəklərdən xəbər verirdi.

Ekzistensializm üçün Nitşenin "Tanrı öldü! Onu biz öldürdük" ifadəsi çox önəmlidir. Bəli, XIX əsrin sonlarında Avropa cəmiyyətində yaşanan mənəvi və intellekt böhranından xəbər verən bu ifadə, eyni zamanda bütün mövcud "dəyərlərin yenidən dəyərləndirilməsi" məsələsini də ortaya qoyurdu. Çünki XIX əsrin sonlarında Avropa cəmiyyəti üçün din, dini dünyagörüşü, daha doğrusu, dünyanın dini ehkamlarla izahı, insanların varlıq, yaradılış, ölümdən sonra olacaqlarla bağlı verdikləri fundamental suallara ilahiyyatın verdiyi cavablar artıq öz aktuallığını itirmiş, qaneedici deyildi. "Tanrının öldüyü" dünyada təkbaşına qalan insan yeni dəyərlər axtarışına çıxır. Məhz belə bir mənəvi atmosfer varlıq fəlsəfəsinin başlanğıc mərhələsidir. Bu fəlsəfə hesab edir ki, insan boş və anlamı olmayan dünyada anlam axtarışındadır. Çünki dünyada anlam axtarmaq, yaradılışın səbəb və məqsədlərini başa düşmək arzusu məhz, insana məxsus bir davranış tərzidir.

Ekzistensializm azadlığın yeni formasıdır. Onun əsas çıxış nöqtəsi həyatda gözləntiləri doğrulmayan insanın yenidən dəyərlər yaratması, öz heçliyinə güvənərək özünə güc toplaması və özünü yenidən gerçəkləşdirməsidir. Ekzistensializmin ən böyük nümayəndələrindən biri Jan Pol Sartrdır. Sartr "Varlıq və heçlik" adlı mətnində Haydeqqerin "Varlıq və zaman" kitabının bir növ dəyərləndirilməsi və tənqidindən başlayaraq, öz yanaşmasının əsaslarını qoyub. Onun fikrincə, ekzistensializm "əvvəlcə mövcud olan varlığın sonra onun mahiyyətini qurmaqla", yəni özü üçün yeni mənalar yaratmaqla məşğuldur. Sartra görə, insanların əvvəlcədən müəyyən edilmiş mahiyyəti (taleyi) yoxdur. Bu mahiyyəti verə biləcək heç bir qüvvə (Tanrı) yoxdur. Bu halda insan "tamamilə azaddır". Azad insan öz mahiyyətini, dəyərlərini yaradacaq. Nə olmaq istəyirsə o da olacaq. Əxlaqi davranışı heç bir qüdrətlə təyin olunmayan insan öz əxlaqi dəyərlərini yaradacaq. Bu əxlaqi dəyərləri bərqərar etmək hər kəsi əhatə edə biləcək bir əxlaq anlayışı deyil. Yəni universal əxlaq yoxdur (1, s.7).

Ekzistensial fəlsəfənin yarandığı dövr bir çox dəyərlərin iflasa uğradığı zamana təsadüf edir. Əsrlər boyu insanların inanaraq arxalandığı dəyərlər bir-birinin ardınca məhv olur. Nəyə inanmalıdır Avropa insanı? Bildiyimiz kimi, Tanrı premoderndə ən önəmli fiqurdur. Dünyanın və insanın yaradılışı müqəddəs kitablarda təsvir edilmişdir, hətta dünyanın sonu da bəllidir. Daha dəqiq desək, təktanrılı dinlər bizlərə dünyanın əvvəli və sonu ilə bağlı tam ssenari təqdim edir. Əksini iddia edənləri (bütün dövrlərdə belə insanlar olmuşdur) isə ən ağır cəza gözləyir.

XVI əsrdən başlayaraq isə tədricən modern dönəmə keçid etməklə əsas rolu insan üstələyir. Elmi dünyagörüş inkişaf etdikcə insana güvən də artırdı. Artıq Tanrının köməyi olmadan da insan elmlərə yiyələnir, kəşflər edir, ixtiralar həyata keçirir, təbiətə müdaxilə edə bilirdi. Modernin ilk mərhələsində elmə yiyələnmiş insanla dünyanın parlaq gələcəyi ideyası bütün Avropanı həyəcanlandırmışdı. Lakin "tanrı proyekti" kimi, "insan proyekti" də sonunda iflasa uğradı. İnsanlar elmdə irəli getdikcə kimyəvi silahlar, atom bombası, süni xəstəliklər kəşf etdi. XX əsrin əvvəllərində baş verən I Dünya müharibəsi göstərdi

ki, “humanist və rasional” düşünən insan kimyəvi silahlar istehsal edə, “ölüm düşərgələri” yarada və milyonlarla insan qanı axıda bilər. II Dünya müharibəsi isə nəinki insanlığı, hətta Yer planetini belə məhv olmaq təhlükəsi ilə üz-üzə qoydu.

Ekzistensializm məhz belə bir dövrdə insana var ola bilmə perspektivlərini təqdim edir. Bu fəlsəfə deyir ki, dünyaya gəlməyimizin nə rasional, nə də metafizik anlamda heç bir mənası yoxdur. Çünki dünya özü anlamsızdır. Yaşadığımız dünyada heç bir ağıl və anlamın olmaması insan üçün fəlakət deyil, əksinə bir şansdır. Bu dünyaya anlam qatmaq şansı. Var olmaq istəyirsənsə, həyatına anlamı sən verəcəksən.

## 2. A.Kamyunun varolma ila bağlı düşüncələri

A.Kamyu da ekzistensialist kimi “insan tamamilə azaddır” ideyasının tərəfdarı idi. Bu tam azadlıq, eyni zamanda tam məsuliyyət də deməkdir. Bütün seçimlərində azad olan insan bu seçimlərin yaratdığı nəticələr qarşısında da tam məsuliyyət daşıyır. Bu fəlsəfəyə görə, qədər və talenin boynuna heç nəyi yıxmaq olmaz. Artıq heç bir qismət, alın yazısı, ilahi təsadüf onu bu məsuliyyətdən qoruya bilməz. Bir sözlə, insanın bütün həyatı onun şəxsi seçimləridir. Təsadüfi deyil ki, Kamyu ən mühüm fəlsəfi əsərlərinin birində yazır: “Həqiqətdə önəmli olan bir fəlsəfi problem var: İntihar. Həyat yaşamağa dəyər, ya yox? məsələsində bir qərara sahib olmaq fəlsəfənin ən təməl sualına cavab vermək deməkdir” (3, s. 21). Başqa sözlə, insan o qədər azaddır ki, həyatını davam etdirib etdirməyəcəyini də seçə bilər.

A.Kamyu insanın bu dünyada anlam axtarma səyini absurd adlandırır. Həyatın absurdluğunu anlamaq Kamyu üçün son yox, əksinə başlanğıcdır. Absurd həyatla üzləşərkən filosof insana üç çıxış yolu təqdim edir. Birinci yol, intihardır. Daha doğrusu, “həyat yaşamağa dəyərmi?” sualına verilən cavabdır. Filosofa görə, insan sonsuz azadlıq sahibidir və yaşayıb yaşamayacağına da özü qərar verə bilər. Kamyu həyat nə qədər absurd da olsa yaşamaq tərəfdarıdır. İntihar çıxış yolu deyil, mühüm olan absurd dünyaya meydan oxuyaraq Var olmaqdır. “Absurd dünyanı dəyişmək iqtidarında olmayan insan ən azından özü bu absurdun tərkib hissəsi olmaqdan qaça bilər” (3, s. 19).

İkinci yol, “fəlsəfi intihardır”. İnsan həyatını hər hansı bir ideologiyaya həsr etdikdə (bu din, hər hansı sosial hərəkat, siyasi partiya və s. ola bilər) fəlsəfi cəhətdən intihar etmiş olur.

Üçüncü yol isə qiyamdır. Fəlsəfi mənada qiyam. Absurd dünyanın absurd işlərinə qarşı ədalətli mübarizə. Sonsuz azadlığa malik insanın hər addımı qarşısında məsuliyyəti və cavabdehliyi.

A.Kamyunun fəlsəfəsini təhlil edərkən M.Rzayev yazır: “Kamyuya görə, mövcudluğun absurdluğunun başa düşülməsi insanı ümidsizliyə gətirməməlidir. Həyatın absurdluğu darıxdırıcılıq törədir və bu şüuru hərəkətə gətirir, onun fəaliyyətinin nəticəsi isə ya “adəti yolla təhtəlşüura qayıdışdır”, ya da “qəti oyanışdır”. Oyanmağın nəticəsi isə ya intihardır, ya da həyatın gedişinin bərpasıdır” (2, s. 254).

Təbii ki, kiçik bir məqalədə A.Kamyunun fəlsəfəsindən ətraflı söz açmaq mümkün deyil. Digər tərəfdən də, filosofun hər hansı bir bədii əsərinin təhlili məhz onun fəlsəfi fikirlərinin işığında aydınlaşır.

## 3. “Yad” əsərində fərd və cəmiyyət problemi

Qayıdaq “Yad” əsərinə. Əsər oxucunu bəyənib-bəyənməməyindən asılı olmayaraq, düşünməyə vadar edir. Baş qəhrəman Mersonun həyat tərzi, ətrafda baş verənlərə münasibəti, insanlarla qurduğu ünsiyyət özünəməxsusluğu ilə seçilir. Elə əsərin ilk sətirlərindən qəribə münasibətlə rastlaşırıq:

“Bu gün anam öldü. Bəlkə də dünən ölüb, bilmirəm. Ahıllar evindən teleqram aldım. Sabah dəfndir...”. (4, s.5) Bu soyuq üç cümlə ilə başlayır əsər. Daha sonra cənab Mersonun

anasının tabutu başında keçirdiyi gecə, Ahıllar evi sakinlərinin səssiz baxışlarındakı deyə bilmədikləri sözlərin hərarəti, hətta dəfn zamanı Əlcəzairin hər yeri yandırıb yaxan günəşinin istisi belə bu soyuqluğu azaltmır. Əsərin ilk sətirlərindən başlayan bu abu hava sonda qızmar günəşin sərsəmlədərək qatilə çevirdiyi Mersonun cəlladına çevrilir. Çünki o bir insanın həyatına son qoyduğu üçün yox, anasının dəfnində göz yaşı axıtmadığı üçün mühakimə edilir.

Merso bütün davranışları ilə alışdığımız dünyaya yaddır. Əsərin adı təsadüfən seçilməyib. Biz insanlar qurduğumuz düzəni pozanlara, əsrlərlə yaradılan dəyərlərə məhəl qoymayanlara qarşı amansız oluruq. Bizlər üçün nəyi necə etməyin, harada nə deməyin, kimlərlə yaxın olub kimlərdən uzaq durmağın standart ölçüləri var. Adına "əxlaq normaları" deyirik. Belə davranmayan hər bir kəs bizim dünyamıza yaddır. Çoxluğun yaratdığı əxlaq normalarını pozan tək-tük insanlara qarşı isə əxlaqsız davranmaqdan əsla çəkinmirik. Bəli, Merso nə şəxsi həyatında, nə də cəmiyyət içində "oynamır". Roldan rola girmək istəmir. Anasının dəfnində göz yaşı axıtmaq içindən gəlməyən çox adam olsa da, Merso kimi göz yaşı axıtmayanlar azdır. İçindən gəlməsə belə ağlamaq məcburiyyətindəsən. Mersonun dəfnə gəlişi ilə hamı dünyasını dəyişən yoldaşını unudaraq Mersonu müşahidə etməyə başlayır. Təbii olaraq, müşahidələr mühakimələrlə əvəz olunur. Mersonun məhkəməsi də, məhz bu "əxlaq normaları"na münasibətdə onun göstərdiyi davranış üzərində qurulur. Hətta vəkilin "mən bilmək istəyirəm ki, müvəkkilim adam öldürdüyü üçün mühakimə edilir, ya anasını dəfn etdiyi üçün?" sualına prokurorun cavabı belədir: "Bəli, bu adamı anasını bir cani qəlbi ilə dəfn etdiyi üçün ittiham edirəm". Anasını dəfn etdiyi günün səhəri dənizə girən, bir qadınla sevgili olan, komik tərzdə film seyr edən Merso prokuroru dəhşətə gətirir və o, qərar verəcək insanlardan müttəhimin "başını istəyir". Həm də özünün də etiraf etdiyi kimi çox rahat, qəlbində tərəddüd və təəssüf hiss etmədən. Çünki bu dəfə tələb etdiyi ölüm cəzası, eyni zamanda müqəddəs bir vəzifənin icrasıdır. Heç kəsin ağlına gəlmir ki, bəlkə Mersonun anasına münasibətinin arxasında xüsusi səbəblər var. Nə çoxdur kiçik yaşlarında anasından sevgi, mərhəmət görməyən, daim diqqətdən kənarda qalan, aşağılanan, təhqir edilən, döyülən uşaqlar. Bəlkə Merso da belələrindən biridir. Bu sual məhkəmə prosesində heç kimi maraqlandırmır. Çünki insanlığın əsrlər boyu yaratdığı bir dəyər var: "ana müqəddəsdir". Bunun əksini göstərən həqiqətlər isə "böyük dəyərin" fonunda gözə görünmür.

"Yad" əsərinin birinci hissəsi Mersonun həyatında baş verənlərin ardıcıllıqla təsvirinə həsr olunub. Mersonun dilindən bir həyata şahid oluruq. Ənənəvi düşüncəyə görə baş verənlər bir tale, alın yazısıdır, müəllif üçün isə sadəcə təsadüflərdir. "Belə olmaya bilərdi" variantı həmişə mövcuddur.

Kamyu ilə eyni dövrdə yaşayan J.Sarter "Yad" əsərini təhlil edərkən yazır: "Kamyu qəhrəmanları və oxucular arasına şəffaf şüşədən arakəsmə çəkmək kimi bir ədəbi priyomdan istifadə edir. Həqiqətən də, şüşə arxasında qalan insanlardan əcaib nə ola bilər? Şüşə arxasından hər şey aydın görünsə də, insanların hərəkət və jestlərinə anlam vermək qeyrimümkündür" (6). "Yad"dakı şüşə arakəsmə isə Mersonun şüurudur. Onun şüurundan keçən hər şey biz oxucular üçün əlçatandır. Lakin diqqət etsək görərik ki, bizə şəffaf görünən sadəcə hadisələr və əşyalardır. Bu hadisə və əşyalara verilən anlamlar isə tamamilə qaranlıq qalır. Məhz bu cəhət də oxucunun əsəri şərh etməsində çətinlik yaradır. Bir çox məsələlərə biganə qalan qəhrəman yalnız təbiətlə təmasda həssasdır. Anasının dəfnində belə hiss etdiyi yeganə şey havanın istisi, günəşin yandırıcı qızmarlığıdır. Parisdə işləmək təklifi belə onu həyəcanlandırmır. Nə fərqi var Paris, yoxsa Əlcəzair? Hər yerdə günlər eyni ritmlə bir-birini əvəz edir. Hətta sevgilisi onu sevdiyini soruşanda rahatlıqla yox deyir. Lakin sevgilisi istərsə onunla evlənə bilər. Çünki bütün bunlar Merso üçün önəmli deyil. Bəs önəmli olan nədir? Bu sualın qismən cavabını əsərin ikinci hissəsində alırıq.

"Yad" əsərinin ikinci hissəsi qəhrəmanın zindanda yaşadığı və hiss etdiklərinə həsr

olunub. Vəkil ilk görüşündə işin həssas olduğunu, lakin ona güvənirsə hər şeyin həll olunacağını vəd edir. Ancaq bir sıxıntı var. Hər şey də bu yeganə sıxıntıdan başlayaraq Mersonun qətlinə qədər yol alır. Məlum olur ki, vəkil sıxıntı deyərkən heç də Mersonun bir insanı öldürməsini deyil, onun bu yaxınlarda dünyasını dəyişmiş anasının dəfnində nümayiş etdirdiyi biganə, laqeyd münasibətini nəzərdə tutur.

“Müfəttişlər deyib ki, anamın dəfni günü özümü qəddar və vecsiz bir adam kimi aparmışam. “Başa düşürsünüzmü, – vəkilim dedi, – bu barədə sizə sual vermək mənə ağır gəlir. Ancaq necə olsa da bu vacibdir. Tutarlı bir dəlil tapmasam, ittihamçılar bu faktlardan sizin əleyhinizə istifadə edəcəklər. Həmin gün, yəni anamı dəfn edəndə ürəyim ağrıdımı? Qüssə məni üzüb qurtardımı? Bu sual məni çox təəccübləndirdi, onun yerinə mən olsaydım, kiməsə belə sual verməyə ürəyim gəlməzdi. Artıq çoxdan idi ki, öz-özümlə həsb-halı yadırğamışam və ona bu barədə nəsə deməkdə çətinlik çəkirəm. Şübhəsiz ki, anamı sevirdim, ancaq bu hələ heç nə demək deyil. Bütün allah bəndələri haçansa sevdikləri insanlara ölüm arzulayıblar. Bu məqamda vəkil sözümü kəsdi, nədənsə xeyli həyəcanlanmışdı. İstədi söz verim ki, bu sözləri məhkəmədə, xüsusən də müstəntiqin yanında dilimə gətirməyim. Bununla belə ona izah etdim ki, təbiətim etibarilə fiziki ehtiyaclarım hisslərimlə tərs münasibdir. Anamı dəfn edəndə çox yorğun idim və ayaq üstə mürgüləyirdim. O anın baş verməsi beynimə batmırdı. Bir şeyi qəti deyə bilərəm ən çox istədiyim o idi ki, anam ölməmiş olsun. Ancaq vəkilim, deyəsən, razı qalmadı “bu kifayət etmir» (4, s. 62). Sonuna qədər də həm vəkil, həm müstəntiq, eləcə də keşiş Mersonu ərəbi qətl etdiyi üçün yox, “əcaib” insan olduğu üçün qınadılar. Onlara görə, Merso normal insanlar kimi düşünmür, normal insanlar kimi reaksiya vermir, nəhayət normal insanlar kimi davranmırdı. Bəs normal insan kimdir? Yaxud normaları yaradanlar kimlərdir? Bütün bu normalara boyun əymək məcburidirmi? Məhz bu anda Kamyunun qiyam, başqaldırmaq konsepsiyası önə çıxır. Merso bütün sosial norma və tabular qarşısında tamamilə azad insandır. Çünki o, həyatın əsas qanunu olan absurdu bütün çılpaqlığı ilə dərk etmişdir. Elə buna görə də ətrafda baş verənlərə laqeyd qalaraq “fərqi yoxdur” prinsipi ilə yaşayır. Çünki həyatı kökündən dəyişmək mümkün deyil, həyat aşağı-yuxarı hər yerdə eynidir. Bununla belə, Merso pessimist deyil, mənəvi baxımdan yaşama böyük mənalar yükləməsə də fiziki cəhətdən aldığı həzlərə üstünlük verir: dənizi sevir, sevgilisi ilə görüşlərdən məmnundur, dadlı yeməkləri, içkiləri xoşlayır və s. Bütün bunlar ona xoşbəxt olmağa bəs edir. Amma bu gündəlik təsadüfi hadisələr zənciri bir insanın qətli ilə nəticələnir. Bütün baş verənlər təsadüfdürmü? Əgər Kamyu dünyada məna axtarmağı absurd hesab edirsə, demək baş verənlər də yalnız təsadüf olmalıdır. Günlərin birində Merso Raymondla tanış olur, onun sevgilisindən intiqam almasına yardım edir və dəniz kənarında qızın yaxınları olan bir neçə nəfər ərəblə dalaşır, nəhayət, bir neçə dəqiqədən sonra sahildə ərəblərdən birini güllə ilə öldürür.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, A.Kamyu nəinki Mersonun, eləcə də əsərin digər obrazlarının hərəkət və davranışlarını izah etmir, sanki bilərək boşluqlar yaradır. Bu boşluqları isə hər bir oxucu həyatda da olduğu kimi öz dərketmə, anlama, düşünmə səviyyələrinə uyğun doldurur. Çünki Kamyu fəlsəfəsinə görə, biz insanların dünyaya gəlişi sırf təsadüfdür. Eyni ata və anadan fərqli genetik kombinasiyalara malik başqa birisi də doğula bilərdi. Və təsadüfən atıldığımız bu həyatda qarşımıza çıxan boşluqları mənalandırmaq isə bizim seçimimizdir.

Kamyunun qəhrəmanı Merso ətrafdakılardan fərqli olaraq, həyatın absurdluğunu dərk etmişdir. Mersonun yaşamaqdan gözlədiyi yeganə şey “anı yaşamaqdır”. Dünəndə ilişib qalmadan, sabahı düşünmədən “əbədi indiki zamanda” yaşamağı arzulayan Merso üçün digər insanları birləşdirən ideyalar, inanc sistemləri, əxlaq normaları mənasız və dəyərsizdir. O sanki zehnini susdurmuş, düşünməyi buraxmış, mexaniki surətdə mövcud olmağı seçmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi, Kamyunun qəhrəmanının zövq aldığı

nüanslar da məhz bu günlə bağlıdır: bu günün havası, günəşin istisi, dənizin dalğası və s. Bütün bunlara baxmayaraq, Merso bir çox inanclı insanlardan, əxlaq keşikçilərindən daha dürüstdür, heç vaxt yalan danışmır, əleyhinə olan durumlarda belə həqiqəti söyləyir.

Ərəbin öldürülməsi səhnəsi "Yad" əsərinin kompozisiya quruluşunda dönüş nöqtəsidir. Yuxarıda da qeyd etdiyimiz kimi, məhz bu hadisədən sonra əsərin II hissəsi başlayır. Müəllifə görə, əsərin mənası bu iki hissənin paralelliyindən yaranır. II hissə sanki güzgüdür. Lakin əksinə olaraq həqiqəti əks etdirmək əvəzinə Mersonun duyğularını tanınmaz dərəcədə təhrif edən güzgü. Mersonun həyata münasibəti ilə onu mühakimə edən insanların doğruları arasındakı qeyri-mütənasiblik "Yad" əsərinin bədii quruluşunda aparıcı asimmetriyaya çevrilir.

"Yad" əsərində din, inanc məsələləri də maraq doğurur. Kamyunun özü kimi qəhrəmanı da Tanrıya inanmır. Kamyuya görə, tanrı varsa, məsuliyyət yoxdur. Daha önəmlisi, tanrı varsa insan azad deyil. Mersonun İsa Məsihlə müqayisə olunması birbaşa müəllifin şəxsi etirafı ilə bağlıdır. A.Kamyu "Yad" əsərinin Amerika nəşrlərindən birinə yazdığı ön sözdə qeyd edirdi ki, mən qəhrəmanım Mersonun simasında bizim layiq olduğumuz yeganə İsa Məsihi təsvir etmişəm. Bu iddiadan belə nəticəyə gəlmək olar ki, bizlər İsa Məsihə layiq deyilik. Bu müddəa ilə Merso aşağılanmırmı? Yaxud utopik İsa məsih obrazının real həyatda qarşılığı ancaq Merso qədər olardımı? Bu iki obraz arasında ən mühüm ortaq cəhət hər ikisinin çoxluğun qəbul etdiyi normalara qarşı çıxmaları və dürüstlükləridir. Və yaşadıqları cəmiyyət onları nəinki qəbul etmir, hətta canlarını alır.

Əsərin ən maraqlı və kulminasiya sayılan hissəsi Merso ilə keşişin görüş səhnələridir. Edamını gözləyən Merso sabahı olmayan insan olaraq həm sonsuz tənha, eyni zamanda da sonsuz azaddır. Ölümdən sonrakı həyatla bağlı ümid və təsəllilər Merso üçün anlaşılmaz və qəbuledilməzdir. Keşiş ilə ağır dialoqu daim sakitliyini qoruyan Mersonun qəfil qəzəblənməsi ilə başa çatır və o bütün içində saxladıqlarını son həmlə kimi keşişə çevirir. Ona çox az vaxtı qaldığını və bu zamanı da inanmadığı tanrıya həsr etmək istəmədiyini söyləyir. Keşişin özündənrazı ədaları Mersonu özündən çıxarır. Ədalarının arxasına sığınan bu keşiş Mersonun qənaətinə görə yaşadığından belə əmin deyil, çünki ölü kimi yaşayır. Merso isə hər şeydən, özündən, onu gözləyən ölümdən əmindir. Ölümün onu ələ keçirdiyi kimi, o da ölümü qəbul etmişdir. Mersoya görə, o dünən də haqlı idi, bu gün də haqlıdır. Onsuz da hamı öləcək. Bu dünyada insanlar imtiyazlılar və digərlərinə bölünür. Adam öldürdüyü üçün həbs edilib anasının yasında ağlamadığına görə edam edilən Merso üçün bu həyatda hər şey boş və mənasızdır. Çünki keşiş kimi imtiyaz sahibləri sabah yenə də kimləri isə ölümə məhkum edəcək.

**Nəticə**

Beləliklə, A.Kamyunun "Yad" əsəri insanları mühakimə edərkən ümumi əxlaq dəyərlərindən daha ziyadə həmin insanın yaşadığı fərdi nüansları, təcrübələri nəzərə almağı, konkret situasiyaları qiymətləndirməyi tövsiyə edir. Qeyd etmək istərdik ki, bu əsər nə qədər təhlil edilsə də mövzunun yaratdığı suallara bütünlüklə cavab vermək mümkün deyil. Varlıq fəlsəfəsinin də dediyi kimi, bir insan haqqında qəti fikir, yalnız o öldükdən sonra deyilə bilər, yaşadığı zaman isə var olmağa davam edir. Var olduqca isə dəyişmək qaçılmazdır.

XX əsr ədəbiyyat tarixinə həm mövzusu, həm də yazı tərzi baxımından yeni nəfəs gətirən A.Kamyunun "Yad" əsəri gələcəkdə yaranacaq absurd ədəbiyyat, absurd teatr üçün də təməl təşkil edir.

## ƏDƏBİYYAT


1. Mehdiyeva, L., Rəşidov, Z. Jan Pol Sartrın fəlsəfi sistemində insan proyekti // Metafizika jurnalı, I buraxılış, 2024, s. 41-58
2. Rzayev, M. Fəlsəfə tarixi. Bakı: Elm, 2015, 302 s.
3. Kamyu, A. Sizifos söylemi. İstanbul: Can yayınevi, 2021, 159 s.
4. Kamyu, A. Yabancı. İstanbul: Can yayınevi, 2016, 111 s.
5. Kierkegaard S. İstanbul: Zeplin kitaplar, 2018, 472 s.
6. Боксенский Ю., М. Современная европейская философия (первая половина XX века). Москва: Научный мир, 2000, 256 с.
7. http://laracon.blogspot.com/2016/01/blog-post.html



***Резюме***

***Вафа Аббасова***

***Проблема существования в «Незнакомце» Альбера Камю***

Одним из важнейших произведений в истории литературы XX века является «Посторонний» французского писателя Альбера Камю. Это произведение, находящееся в центре внимания любителей литературы и литературоведов с момента его публикации, является прекрасным источником для понимания века, в котором оно было написано, людей, живших и умерших в этом столетии. В статье философские мысли А. Камю, его взгляды на жизнь рассматриваются в свете произведения «Посторонний». А. Камю, как представитель философии Екзистенциализм считает абсурдной попытку человека осмыслить мир. Мы тоже не имеем значения для мира. В этой ситуации взаимной незначительности вопрос о том, какую позицию должен выбрать человек в жизни, составляет основу философии Камю. Мерсо, герой повести «Посторонний», – один из тех, кто осознает эту нелепость. Именно поэтому он равнодушен и чужд всем происходящим вокруг него событиям. Существующие в обществе «неписаные законы» для него недействительны. Мерсо, который живет жизнью, сосредоточенной на реакциях своего тела, а не разума, имеет потенциал принять то, что с ним происходит. В конце пьесы герой, который не меняется в зависимости от ситуации, отказывается играть разные роли и ведет себя согласно своим чувствам, подвергается осуждению со стороны общества и сталкивается с правдой о том, «как опасно покидать стадо».

В статье автор сначала рассказывает о реалиях XX века, давая информацию об основных направлениях философии А. Камю, основных принципах экзистенциального философского движения в целом. В ней рассматриваются причины возникновения этого философского направления, мысли философов, давших ему направление. Далее повествование «Посторонний» анализируется с разных сторон. Отношения между обществом и личностью, судьей и осужденным, человеком и природой, родителем и ребенком фильтруются вопросом о том, кто прав. Учитывая, что творчество А. Камю не получило широкого изучения в азербайджанском литературоведении, данная статья является полезным исследованием, восполняющим этот пробел.


**Ключевые слова:** *философия, существование, свобода, человек, XX век, мир, труд, истина, смерть, исполнение*


***Summary***

***Vafa Abbasova***

***The Problem of Existence in “The Stranger” by Albert Camus***

One of the most important works of 20th century literary history is "The Stranger" by the French writer Albert Camus. This work, which has been in the attention of literature lovers and literary scholars since its publication, is a wonderful source for understanding the century in which it was written and the people who lived and died in that century. In the article, A. Camus's philosophical thoughts, outlook on life, and the value he reaped for people are examined in the light of the work "The Stranger ". A. Camus, as a representative of the philosophy of existentialism, considers man's attempt to make sense of the world absurd. We don't matter to the world either. In this situation of mutual insignificance, the question of what

position a person should choose in life forms the basis of Camus's philosophy. Meursault, the hero of the "The Stranger" story, is one of the people who is aware of this absurdity. That is why he is indifferent and stranger to all the events happening around him. The "unwritten laws" existing in society are not valid for him. Meursault, who lives a life focused on the reactions of his body and not his mind, has the potential to accept what happens to him. At the end of the play, the hero, who doesn't change according to situations, refuses to play different roles, and behaves as he feels, is judged by society and faces the truth of "how dangerous it is to leave the herd".

In the article, the author first talks about the realities of the 20th century, giving information about the main directions of A. Camus's philosophy and the basic principles of the existential philosophical movement in general. She examines the reasons for the emergence of this philosophical trend and the thoughts of the philosophers who gave it direction. Later, the "Stranger" novella is analysed from different aspects. The relations between society and individual, judge and convict, man and nature, parent and child are filtered by the question of who is right. Considering that the work of A. Camus is not widely examined in Azerbaijani literary studies, this article is useful research to fill that gap.

**Keywords:** *philosophy, existence, freedom, man, 20th century, world, work, truth, death, execution*

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Məmmədova-Kekeç Elmira Fikrət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.